**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**TƏRANƏ GƏRAY QIZI BEHBUDOVA**

# ŞİMALİ AZƏRBAYCANDA 1877-ci il ÜSYANLARI

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2015**

*Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi,
t.ü.e.d., professor, Dövlət Mükafatı Laureatı **Y.M.Mahmudov**

**Elmi məsləhətçi:**
tarix üzrə fəlsəfə doktoru **H.N.Həsənov**

**Rəsmi opponentlər:**
Əməkdar elm xadimi,
tarix üzrə elmlər doktoru, prof. **T.T.Mustafazadə**

tarix üzrə elmlər doktoru, prof. **F.N.Məmmədov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «16___» _12__2015-ci il tarixli iclasında, saat______ keçiriləcəkdir

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı, ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

**Avtoreferat** "___"__________2015-ci il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru **C. Ə. Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan tarixşünaslıq elmi qarşısında duran ən mühüm vəzifələrdən biri Azərbaycan xalqının tarixində xüsusi tədqiqata çox böyük ehtiyacı olan XIX-XX əsrlər tarixinin tədqiqi məsələsidir. Ümummilli lider Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüş zamanı: "Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır".[1]

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ölkənin tarixçi alimlərinə tədqiqatlarda müstəqil mövqe ortaya qoymaq və tarixi proseslərə son dərəcədə obyektiv yanaşmaq imkanları yaratmış oldu. Bunun nəticəsidir ki, son 25 ildə aparılmış tədqiqatlar, xüsusilə XIX-XX əsrlər tarixinə dair problemlərin tədqiqi tarixə baxışı ilə əvvəlkilərindən xeyli fərqlənir və Vətən tarixşünaslığını zənginləşdirmişdir.

Məlumdur ki, XIX əsrdə çar Rusiyası müstəmləkəçiliyinə qarşı xalq azadlıq hərəkatının tərkib hissəsi olan lokal xarakterli üsyanların ayrı-ayrılıqda tədqiq olunması Azərbaycan tarixçilərinin qarşısında duran mühüm və aktual məsələlərdən biridir. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çarizmin müstəmləkə siyasətinə qarşı baş vermiş üsyanlar xalqın həmin rejimi qəbul etməməsi istəyindən irəli gəlirdi. Azərbaycan xalqı onun üçün tamamilə yad olan bir idarə quruluşuna boyun əyməmiş və narazılıqlarını həm də bu sistemə qarşı etdiyi üsyanlar ilə bildirmişdi. Cənubi Qafqazın xristian əhalisi ilə müqayisədə müsəlmanlara olan ögey münasibət, müsəlmanlara münasibətdə ayrı-seçkilik siyasəti onlarla geridə qalmış kütlə kimi rəftar edilməsi və s. bəhs olunan dövrdə Şimali Azərbaycanda arası kəsilməyən üsyanlara gətirib çıxarmışdı. Belə üsyanlar adətən zülm ərşə çəkiləndə, azadlıq məfkurəsi insanların beyinlərinə hakim kəsildikdə baş verirdi. Bu baxımdan 1877-ci ildə Şimali Azərbaycanın bir sıra bölgələrini bürümüş üsyanlar da istisna deyildir. Həmin üsyanların mötəbər qaynaqlar əsasında obyektiv şəkildə araşdırılması bütövlükdə Azərbaycan xalqının çarizmə qarşı azadlıq hərəkatının tam və bitkin mənzərəsini yaratmaq baxımından çox aktual bir tarixi-elmi vəzifədir.

Azərbaycan tarixinin tədqiqatına daha çox ehtiyac duyulan dövrlərindən biri olan XIX əsrin tarixinin araşdırılması yeni tarixi faktların ortaya çıxarılmasına və tarixi hadisələrin obyektiv qiymətləndirilməsinə şərait yaradır. Haqqında bəhs olunan üsyanların baş qaldırmasının səbəblərindən birinin də şar Rusiyası-Osmanlı müharibəsinin olmasını nəzərə alsaq, mövzunun hərtərəfli araşdırılmasının elmi-siyasi əhəmiyyəti bir daha ortaya çıxır.

Dissertasiyanın aktuallığını şərtləndirən ən başlıca amillərdən biri də ta-

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar müsahibələr. Bakı, 1998, s.369.

rixi faktlara, arxiv sənədlərinə, dövrü mətbuat materiallarına, statistik göstəricilərə əsaslanaraq 1877-ci il üsyanlarının tarixi əhəmiyyətini bütün rəngarəngliyi ilə tədqiq etməkdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya əsasən Şimali Azərbaycanda 1870-ci illərin üsyanları dövrünü əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər 1877-ci il üsyanlarının səbəblərinə qafqazşünas tarixçilər adlandırılan müəlliflərin əsərlərində subyektiv münasibət bildirilmişdir. Onların əsərlərində çarizmin müstəmləkə siyasəti obyektiv tədqiq olunmur, müstəmləkə rejimini qəbul etməyənlərin bu rejimə qarşı mübarizəsi cinayət kimi qələmə verilirdi.

Azərbaycan tarixşünaslığında, o cümlədən XIX əsr və XX ərin əvvəllərində iqtisadi münasibətlərin öyrənilməsində və geniş ictimaiyyətə çatdırılmasında yeddi cildlik "Azərbaycan tarixi"nin IV cildi[1] xüsusi çəkiyə malikdir. Habelə keçən əsrin 90-cı illərində nəşr olunmuş "Azərbaycan tarixi" kitabları da dissertasiyanın bəzi elmi ümumiləşdirici nəticələrin əldə edilməsində xeyli rol oynamışdır.[2] Həmçinin 1964-cü ildə işıq üzü görmüş üç cildlik "Azərbaycan tarixi"nin II cildinin[3] əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

"Qafqaz kənd təsərrüfatı cəmiyyəti"nin[4] vitse-prezidenti işləmiş və Cənubi Qafqazda aqrar islahatların hazırlanmasında, habelə bu islahatların həyata keçirilməsində yaxından iştirak etmiş M.N.Kuçayevin[5] və "Qafqaz ipəkçilik stansiyası"na rəhbərlik etmiş N.N.Şavrovun[6] əsərlərində bəhs etdiyimiz mövzu ilə bağlı bir sıra müxtəlif məsələlərə toxunulmuşdur. Bu qəbildən nəşrlərə O.Syomin[7] və İ.Seqalın[8] əsərlərini də əlavə etmək olar.

---

[1] Azərbaycan tarixi. 7 cilddə. IV cild (XIX əsr). Bakı, Elm, 2000.

[2] Azərbaycan tarixi (ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər). Bakı: Elm, 1993; Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). 1 cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

[3] Azərbaycan tarixi. 3 cilddə. II cild (Azərbaycanın Rusiyaya birləşdirilməsindən 1917-ci ilin fevral burjua-demokratik inqilabına qədər). Bakı, Azərb. SSR EA-nın nəşri, 1964.

[4] Bax: Həsənov U. Qafqaz kənd təsərrüfatı cəmiyyətinin yaranması və onun fəaliyyəti. Bakı; Azərbaycan, 1994, 141 s.

[5] Кучаев М.Н. Ростовщичество в среде крестьянского населения // Сборник материалов для изучения экономического быта государственных крестьян Зак. края. Т. 5, Тифлис, 1888, с. 1-72; yenə onun. Феодализм и закрепощение в Закавказского крае // Русский вестник, 1892, № 12.

[6] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку: Элм, 1990.

[7] Семин О. Великая годовщина. Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе. Киев, 1911.

[8] Сегаль И.Л. Крестьянское земледелие в Закавказье. Тифлис, 1912.

Hökumətinin Cənubi Qafqazda həyata keçirmiş olduğu müstəmləkə siyasətinin tərkib hissəsi olan aqrar islahatların mahiyyətini qabarıq şəkildə təqdim etməyə çalışan S.A.Yeqiazarov,[1] O.Syomin,[2] S.Avaliani[3] və S.Esadze[4] kimi müəlliflər çarizmin bütün islahatlarını canfəşanlıqla təriflərlə bəzəməklə oxucunun sərəncamına verirlər.

Qafqazda çalışmış bir sıra çar məmurlarının xatirələri[5] bizə kəndli islahatının keçirilməsi, bu aqrar kampaniyanı həyata keçirənlər, habelə bəy komissiyaları haqqında əvəzedilməz məlumatlar verir. "Russkaya starina", "Russkiy arxiv" və "Russkiy vestnik" kimi dövri mətbuat orqanlarında işıq üzü görmüş həmin əsərlərdən işimizdə kifayət qədər geniş şəkildə istifadə edilmişdir. Dissertasiyanın yazılmasında rus hərbçilərinin əsərlərindən[6]də

---

[1] Егиазаров С.А. Исследование по истории учреждений в Закавказье. Ч. 1. Сельская община. Казань, 1889.

[2] Семин О. Великая годовщина. Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе. Киев, 1911.

[3] Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. Ч.3, Одесса, 1914; Yenə onun, Крестьянский вопрос в Закавказье. Т.4, Тифлис, Изд.-во Государственного университета, 1920.

[4] Эсадзе С. Историческая записка об управлении Кавказом. Т.1, Тифлис, типография «Гуттенберга», 1907.

[5] Барон Николаи. Воспоминания из моей жизни (Крестьянская реформа в Закавказском крае) // «Русский архив», 1892, № 28; Воспоминания П.А.Дзюбенко // Русская старина, т. 26, 1878; Зиссерман А.Л. Отрывки из моих воспоминаний // Русский вестник, 1876, № 12; Из записок М.А.Корфа // Русская старина, январь, 1900; Щербин М.П. Князь М.С.Воронцов и Н.Н.Муравьев (Из служебных воспоминаний) // Русская старина, 1874, №49.

[6] Описание боевой жизни 1-го Кавказского стрелкового Его императорского высочества великого князя Михаила Николаевича батальона в минувшую войну 1877-1878 годов. Составлено штабс-капитаном Курочкиным и прапорщиком Сергеевым. Тифлис, Типография Штаба Кавказского военного округа, 1881; Описание боевой жизни 4-го Кавказского стрелкового батальона в минувшую войну 1877-1878 годов. Составлено штабс-капитаном Поповым. Тифлис, Типография Штаба Кавказского военного округа, 1881; Описание боевой жизни Кубанского полка в минувшую войну 1877-1878 годов. Составлено капитаном Егоровым, под редакции генерал-лейтенанта Чернявского. Тифлис, Тифлис, Типография Штаба Кавказского военного округа, 1884; Описание боевой жизни в минувшую войну 1877-1878 годов 2-го Кавказского стрелкового баталиона. Составлено штабс-капитаном Ивановым. Тифлис, Типография Штаба Кавказского военного округа, 1882; История Апшеронского полка 1700-1892 гг. Составлено Л.Богуславским. Т.2. С.Петербург, Типография министерства сообщения, 1892; Войнов М.А. Бой под Зивинском в Азиатской Турции, 13 июня 1877 г. // Русская старина, июль, 1888 г., с. 149-178.

istifadə olunmuşdur ki, həmin əsərlərdə 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin gedişi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirilmişdir.

Əsərini 1877-ci ildə Çeçenistanda və Dağıstanda baş vermiş üsyanlara həsr etmiş P.İ.Kovalevski[1] Dərbənd ətrafında baş vermiş üsyana da müəyyən qədər yer ayırmışdır. Rus tarixçilərinin yerli xalqlara olan münasibəti elə bu əsərdə də özünü qabarıq şəkildə ortaya qoymuşdur.

Azərbaycanın tarixinin öyrənilməsində və tədqiqində azərbaycanlı tarixçi alimlərdən M.Vəliyev,[2] R.Hüseynov[3] və A.Hubaydullinin[4] xeyli rolu olmuşdur. Onların keçən əsrin 20-30-cu illərində işıq üzü görmüş əsərlərində Şimali Azərbaycanda çarizmin aqrar siyasəti, kəndlilərin sosial-iqtisadi vəziyyəti, torpaq sahələrinin bölünməsi, kəndlilərin istifadəsindəki torpaq sahələri və digər məsələlərə diqqət yetirilir.

Dağıstan tarixçisi M.R.Məhəmmədovun 1877-ci ildə Qafqazda, o cümlədən Dağıstanda və Çeçenistanda baş vermiş üsyanlara həsr olunmuş əsərini[5] sovet dövrü üçün bu sahədə ilk əsər hesab etmək olar. Sovet dövrünün ideologiyasına sadiq qalan müəllif əsərində, təəssüf ki, üsyanın başlanmasının əsl səbəblərini üzə çıxara bilməmişdir.

N.Q.Boqdanovanın[6]1941-ci ildə nəşr etdirdiyi irihəcmli məqaləsini Şimali Azərbaycanda 1870-1917-ci illərdə mövcud olmuş aqrar münasibətlərdən bəhs olunan ilk ciddi tədqiqat hesab etmək olar. Lakin məqalənin irihəcmli olmasına baxmayaraq, müəllif tərəfindən qarşıya qoyulmuş bütün məsələlər öz həllini tapmamışdır.

AMEA-nın müxbir üzvü Ə.N.Quliyev və V.D.Moçalovun redaktəsi ilə "Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri"[7] adlı kitabını ötən əsrin 50-ci illərində nəşr edilməsi tarixşünaslıqda müəyyən canlanmaya gətirib çıxardı.

V.D.Moçalovun çox sanballı monoqrafiyasında Cənubi Qafqazda, habelə Şimali Azərbaycanda natural kəndli təsərrüfatının əmtəə təsərrüfatı-

---

[1] Ковалевский П.И. Восстание в Чечни и Дагестана 1877-1878 гг. С.-Петербург, Типография М.И.Афинкеева, 1912, 97с.

[2] Vəliyev M.H. Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı; Azərnəşr, 1993.

[3] Гусейнов Р. Очерки революционного движения в Азербайджане. Баку; Издательство Бакинский рабочий, 1926.

[4] Губайдуллин А. Феодальные классы и крестьянство в Азербайджане в XIX веке // Известия восточного факультета АГУ, № 3, 1928, с. 15-36.

[5] Магомедов Р.М. Восстание горцев Дагестана в 1877 г. Махачкала; Даг. Гос. издат. Типография им. Калинина, 1940.

[6] Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. // Исторические записки, № 12, 1941, с. 200-227.

[7] Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX - начале XX вв.). Баку, изд. АН Азерб. ССР, 1955.

na çevrilməsi prosesi tədqiq olunmuş, bu prosesdə sələmçi kapitalın rolu izah edilmiş, sosial-iqtisadi xarakterli bir sıra problemlər düzgün dəyərləndirilmişdir.[1]

Akademik Ə.S.Sumbatzadənin Sovetlər İttifaqının bir sıra arxivlərindən əldə edilmiş zəngin arxiv materialları əsasında yazmış olduğu monoqrafiyasında[2] Azərbaycan sovet tarixşünaslıqda ilk dəfə olaraq Şimal-şərqi Azərbaycanın kənd təsərrüfatının demək olar ki, bütün sahələrinə nəzər yetirilmişdir. Azərbaycan sovet tarix elminin patriarxı hesab olunan Ə.S.Sumbatzadə XIX əsr Azərbaycanının sosial-iqtisadi həyatındakı əsas, kardinal məsələlərini dərindən təhlil edə bilmişdir. Onu da qeyd etmək yerinə düşərdi ki, bu akademikin 1961-ci ildə çap olunmuş 1870-ci il 14 may islahatına həsr edilmiş məqalələri də böyük maraq doğurur.[3]

XIX əsrin sonu – XX əsrin əvvəllərinin Şimali Azərbaycanın aqrar tarixini tədqiq edən ən məhsuldar müəlliflərdən biri də AMEA-nın müxbir üzvü M.Ə.İsmayılov olmuşdur. Onun monoqrafiyalarında bəhs olunan dövrün kənd təsərrüfatı ilə bağlı bütün məsələlərə toxunulmuş və bu sahədəki bir sıra boşluqları aradan qaldırılmışdır.[4] Onun əsərlərində Şimali Azərbaycan kəndində əkinçilik kapitalizminin ən mühüm məsələləri tədqiq olunur. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan sovet tarixşünaslığında bilavasitə dövlət kəndliləri tarixinin öyrənilməsində ilk əsər də məhz bu görkəmli alimin qələminin məhsuludur.[5]

Qeyd edək ki, problemin araşdırılmasında görkəmli Azərbaycan tarixçisi, elmi rəhbərim, AMEA-nın müxbir üzvü, professor Y.M.Mahmudovun əsərlərindəki nəzəri müddəalar, konkret elmi göstərişlər və onun şəxsi töv-

---

[1] Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX в. Москва, Издательство АН СССР, 1958.

[2] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, изд. АН Азерб. ССР, 1958.

[3] Сумбатзаде А.С. К вопросу об оценке исторического значения законодательного акта от 14 мая 1870 г. о так называемой «аграрной реформе» в Азербайджане, Армении и части Грузии // Вопросы истории сельского хозяйства, крестьянства и революционного движения в России. Москва, изд. АН СССР, 1961, с. 231-249; Yenə onun. К вопросу об оценке исторического значения крестьянской реформы в Азербайджане и Армении 1870 г. // Доклад на юбилейной научной сессий, посвященной 40-летию Советской власти в Армении. «История СССР», 1961, №2, с.266.

[4] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, Azərbaycan SSR EA-nın nəşri, 1960; Yenə onun. İsmayılov M.Ə. XIX əsrin sonu –XX əvvəllərində Azərbaycanda torpaq mülkiyyəti və torpaqdan istifadə formaları haqqında // Tarix İnstitutunun əsərləri, 13-cü c. 1958, s. 177-200.

[5] Исмаилов М.А. Государственные крестьяне Азербайджана в конце XIX // Труды Института Истории, т. 11, 1957, с. 110-156.

siyə və məsləhətləri bizə çox yaxından kömək etmişdir.[1]

Şimali Azərbaycanın siyasi quruluşuna həsr etmiş maraqlı bir əsərin müəllifi olan A.Milman[2] nəzərdə tutmuş olduğu xronoloji çərçivə daxilində Şimali Azərbaycanda həyata keçirilən demək olar ki, bütün islahatları nəzərdən keçirməyə və həmin islahatların nəticələrini qısa da olsa şərh etməyə çalışmışdır.

Bizi maraqlandıran mövzunun bəzi məqamlarına İ.M.Həsənovun[3] və H.Ə.Dadaşovun[4] tədqiqatlarında da toxunulmuşdur. Həmin əsərlərdə tarixşünaslığımızın aktual məsələləri önə çəkilmiş və layiqli şəkildə qiymətləndirilmişdir.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsində və Cənubi Qafqazda baş vermiş hadisələri qələmə almış gürcü tarixçisi Ş.V.Meqrelidzenin əsərlərində bəhs etdiyimiz üsyanlara da toxunulmuşdur.[5]

Şimali Azərbaycanda çarizmin aqrar siyasətinin iqtisadi tərəfini tədqiq edən iqtisadçı alim T.E.Nəbiyev[6] kəndlilər arasında təbəqələşmənin sürətlə getdiyini və bu prosesin tənzimlənməsində 1870-ci il aqrar islahatının rolunu açıqlamışdır.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin başlanması ilə əlaqədar olaraq nəşri dayandırılmış "Əkinçi" qəzetinin[7] son saylarındakı dərc olunmuş məqalələrdə müharibəyə və üsyanlara müəyyən qədər yer ayrılmışdır.

Şimali Azərbaycanda su sahibliyi və sudan istifadə məsələlərinə tarixşü-

---

[1] Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, 2005 və başqa əsərləri.

[2] Мильман А. Политический строй Азербайджана в XIX - начале XX веков. Баку, Азернешр, 1966, 318 с.

[3] Гасанов И.М. К истории подготовки рескрипта 6 декабря 1846 г. // Труды Института истории и философии АН Азерб. ССР, т.4, Баку, 1954; Yenə onun. Частновладельческие крестьяне в Азербайджане в первой половине XX века. Баку; Изд.-во АН Азерб. ССР, 1957; Yenə onun. Царизм—душитель крестьянского движения (Из аграрной истории Азербайджана в XIX веке) // Известия АН Азерб. ССР, серия истории, философии и права, 1968, № 1.

[4] Дадашов Г.А. О феодально-крепостнических остатках в пореформенном Азербайджане // Труды Азерб. филиала ИМЛ при ЦК КПСС. Т. 20, 1967, с. 119-151.

[5] Мегрелидзе Ш.В. Грузия в русско-турецкой войне 1877-1878 гг. Тбилиси, Мецниереба, 1972; yenə onun. Вопросы Закавказья в истории русско-турецкой войне 1877-1878 гг. Тбилиси; Мецниереба, 1968.

[6] Набиев Т.Э. Аграрные отношения во владельческой деревне Азербайджана во второй половине XIX - начале XX вв. Автореферат диссертации на соискание ученой степени доктора экономических наук. Баку, 1971.

[7] Əkinçi 1875-1877. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1979.

naslığımızda İ.A.Talıbzadənin əsərində[1] tam aydınlıq gətirilmişdir. Onun XIX əsr və XX əsrin əvvəllərində Şimali Azərbaycanda bu məsələyə həsr olunmuş monoqrafiyasında su sahibliyi və sudan istifadənin torpaq sahibliyi və torpaqdan istifadə məsələlərindən az əhəmiyyətli olmaması sübuta yetirilmişdir.

Azərbaycan sovet tarixşünaslığında ilk dəfə 1877-ci il üsyanına öz tədqiqatında[2] xeyli yer ayırmış M.M.Gülmalıyev üsyanın mahiyyətini, başlanmasını və gedişatını bütövlükdə tədqiq etməyə cəhd göstərmiş, lakin qarşıya qoymuş olduğu məqsədə ancaq müəyyən dərəcədə nail ola bilmişdir.

Çox təəssüflər olsun ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, Azərbaycanın aqrar tarixinə və o cümlədən kəndli hərəkatı tarixinə həsr olunmuş xüsusi tədqiqatlara çox az təsadüf edilir. Ə.F.Məmmədovun[3] və R.Y.Niftəliyevin[4] tədqiqatları buna misal ola bilər.

Son iyirmi ildə nədənsə ölkəmizin XIX-XX əsrin əvvəlləri kənd təsərrüfatı tarixinə həsr olunmuş tədqiqatların aparılmasında heç bir irəliləyiş nəzərə çarpmır. Bu vaxta qədər bu sahədə tarix elminə yalnız H.N.Həsənovun[5] monoqrafiyası məlumdur. Əsər bu sahədə araşdırmalar aparan tədqiqatçılar üçün kompas rolunu oynayar desək səhv etmərik.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin baş verməsinin Bakı-Tiflis dəmir yolunun çəkilməsini sürətləndirdiyini qeyd edən Q.Əliyev[6] müharibədən dərhal sonra tərtib olunmuş "Qafqaz təqvimində" bununla bağlı bir sıra təkliflərlə çıxış etmiş məqalədən bəzi sitatları oxucunun nəzərinə çatdırır. Bununla yanaşı bu yolun çəkilməsi üçün müharibənin yeganə səbəb olmadığı da göstərir.

Ölkə ərazisində baş vermiş üsyanların onun əhalisinin say tərkibinə müəyyən dərəcədə təsir göstərmişdir desək səhv etmərik. Ümumiyyətlə götürsək, K.Şükürovun Şimali Azərbaycan əhalisinin tarixinə həsr olunmuş irihəcmli əsəri[7] ölkə əhalisi tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Yuxarıda gətirdiyimiz tarixşünaslıq xülasəsindən də göründüyü kimi,

---

[1] Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı, Elm, 1980.

[2] Гюлмалиев М.М. Крестьянское движение в Азербайджане в последней четверти XIX века. АКД, Баку, 1984.

[3] Məmmədov Ə. Şimali-qərbi Azərbaycan Zaqatala dairəsi. Bakı, Adiloğlu, 2001.

[4] Niftəliyev R. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Bakı, ADPU, 2006.

[5] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX -начале XX вв. Баку, Тахсил, 2007.

[6] Əliyev Q. Azərbaycan nəqliyyatı və iqtisadiyyat (XIX əsr - XX əsrin ilk onillikləri), Bakı. 2001

[7] Şükürov K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı, Elm, 2004.

XIX əsrin son rübünün başlanğıcında təkcə Quzey Azərbaycanın yox, həm də bütün Qafqazın həyatında mühüm hadisə olmuş 1877-ci il üsyanları indiyədək xüsusi tədqiqatın mövzusu olmuşdu. Məhz bu hal həmin mövzunun bu dissertasiya üçün seçilməsinə və bu dissertasiyanın aşağıdakı məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirmişdi.

**Tədqiqatın mənbə bazası.** Mövzunun ayrı-ayrı aspektlərinə toxunulmuş əsərlərdən istifadə etməyimiz bizi bir sıra mənbələr və mənbə səciyyəvi əsərlərin tədqiqata cəlb etməyə və onlardan lazımi səviyyədə yararlanmağa sövq etmiş oldu. Ona görə də dissertasiyanın yazılmasında müraciət olunan mənbələr və 0 cümlədən rəngarəng arxiv materialları toplanmış kitablar tədqiqatın daha da zənginliyinə və habelə obyektivliyinə bilavasitə imkan vermiş olur.

Dissertasiyanın yazılmasında Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (ARDTA), Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində (AMEA TİEA), Sankt-Peterburq şəhərindəki Rusiya Dövlət Tarix Arxivində (Sankt-Peterburqdakı RDTA) və habelə Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində (GMDTA) saxlanılan çoxsaylı sənədlər əsas qaynaq rolunu oynamışdır. Həmçinin işin sanballılığını artıran məqamlardan biri də Rusiyanın bir sıra arxivlərindən gətirilərək Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivinə Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, Ə.A.Umayev, C.C.Hüseynov, M.M.Gülmalıyev və digər tədqiqatçılar tərəfindən təhvil verilmiş və hal-hazırda da orada qorunan materiallardan gen-bol istifadə olunmuşdur. Bu materiallar 1877-ci il üsyanlarının səbəblərini şərtləndirən sosial-iqtisadi və hərbi-siyasi durumu başa düşməkdə, üsyanların gedişatını izləməkdə, hökumətin üsyanlar ərəfəsi və dövründə həyata keçirdiyi tədbirlərin məğzini anlamaqda bizə müstəsna dərəcədə kömək göstərmişdir. Mövzu üçün digər qiymətli mənbə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (AKAK) hesab olunur. İmperatorun Rusiyanın ilk şərqşünası adlandırdığı A.Berjenin tərtib etmiş olduğu bu kitablarda təkcə hərbi-siyasi hadisələri deyil, həmçinin çarizmin Qafqazda, o cümlədən Şimali Azərbaycanda yeritdiyi sosial-iqtisadi siyasətin incəliklərini, iqtisadiyyatın durumunu və s. anlamaqda əvəzsiz rol oynayan sənəd və materiallar da yer almışdır. Biz bu kitabların son üç cildindən yeri gəldikdə faydalanmışıq.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin gedişində və 1877-ci il üsyanlarının amansızca yatırılmasında bilavasitə iştirak etmiş rus generalları tərəfindən yazılmış məktub, raport, göstəriş və bu qəbildən olan başqa sənədlər yer almış yeddi cildlik “Materiallar”dan[1] həmin dövrdə rus hərbi

---

[1] Материалы для описания русско-турецкой войны 1877-1878 гг. на Кавказско-Малоазиатском театре. Т.2. Составлено в Военно-историческом отделе при Штабе Кавказского военного округа подполковником Томкеевым. Под редакции генерал-лейтенанта Чернявксого. С.Петербург, Издание Военно-Исторической Комиссии Главного Штаба, 1904; Материалы для описания

qüvvələrinin Cənubi Qafqazdakı mövqeləri, hərəkəti, üsyanların yatırılması üçün görülmüş tədbirlər və s. haqqında dəyərli məlumatlar əldə olunmuşdur.

Arxiv materialları əsasında hazırlanan kitablar da mənbə xarakterli sayıla bilər. Bu kitablar həm Azərbaycanda və həm də ölkəmizdən kənarda olan arxivlərdən toplanmış materiallar daxil edilməklə tərtib olunduğundan qiymətlidir.[1] Xüsusilə də Moskvada və Leninqradda nəşr olunmuş "XIX əsrin 20-60-cı illərində Azərbaycanda rus çarizminin müstəmləkəçilik siyasəti" adlı kitabda[2] dissertasiyanın tədqiqat problemi ilə bağlı olan xeyli məlumat toplanmışdır.

"Rusiya imperiyasının qanunlar külliyyatı"[3] bizi maraqlandıran məsələlərə dair çarizm tərəfindən imzalanmış qanunları, qərarları və s.-ni xronoloji ardıcıllıqla izləməyə imkan verir.

Mövzuya aid mənbələr sırasına Qafqazda yüksək vəzifələri icra etmiş çar məmurlarının hesabatları,[4] dəftərxana jurnallarını,[5] kəndli işləri ilə bağlı olan materialları, [6] yerli komitələrin işlərini [7] əlavə etmək olar. Bu materiallar işimizə lazımi və çox mühüm məlumatların daxil edilməsinə kö-

---

русско-турецкой войны 1877-1878 гг. на Кавказско-Малоазиатском театре. Т.3. Составлено в Военно-истрическом отделе при Штабе Кавказского военного округа подполковником Томкеевым, под редакции генерал-лейтенанта Чернявского. Тифлис, Издание Военно-Исторического отдела Штаба Кавказского военного округа; Материалы для описания русско-турецкой войны 1877-1878 гг. на Кавказско-Малоазиатском театре. Т.4. Составлено в Военно-историческом отделе при Штабе Кавказского военного округа подполковником Томкеевым, под редакции генерал-лейтенанта Чернявского. Тифлис, Электропечатия Штаба Кавказского военного округа, 1908, və b.

[1] Антелава И.Г. Реформа земельного устройства государственных крестьян Закавказья в конце XIX века (Сборник документов). Сухуми, 1952; Документы по русской политике в Закавказье. Выпуск 1. Издание Особой Комиссии при Министерстве Иностранных Дел Азербайджанской Республики. Баку; Правительственная типография газеты «Азербайджан», 1920; Сельское хозяйство и аграрные отношение (источники и материалы). Тбилиси; Издательство АН Груз. ССР, 1950.

[2] Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годов XIX в. Ч. 2, Москва-Ленинград, 1937.

[3] Полное собрание законов Российской империи (ПСЗРИ). Собрание второе.

[4] Николаи А.П. Отчет по Главному управлению наместника Кавказского за первое 10-летие управления Кавказским и Закавказским краем князем Михаилом Николаевичем 6 декабря 1862 г. – 6 декабря 1872 г. Тифлис, 1873.

[5] Журнал Канцелярии по делам устройства крестьян 15 мая 1878 года. – СПб, 1878.

[6] Материалы по крестьянскому делу в Закавказском крае. Тифлис, 1876.

[7] Свод трудов местных комитетов по Кавказу. СПб, 1904.

mək etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasının başlıca məqsədi 1877-ci ildə Şimali Azərbaycanda imperiyanın əsarət rejiminə qarşı baş vermiş azadlıq hərəkatının kompleks şəkildə, obyektiv surətdə tədqiqinə nail olmaqdır. Bu əsas məqsəddən çıxış edərək əsərdə aşağıdakı konkret elmi vəzifələrin həllinə cəhd göstərilmişdir:

– üsyanların ilkin sosial-iqtisadi və siyasi şərtlərinin, səbəblərinin müəyyən edilməsi və işıqlandırılması;

– üsyanların başlanmasında Rusiya-Osmanlı müharibəsi amilinin olmasının üzə çıxarılması;

– üsyanlarda əhalinin müxtəlif təbəqələrinin iştirakının təhlil edilməsi və bu üsyanların xalq hərəkatı səviyyəsinə qalxmasının aydınlaşdırılması;

– üsyanların hər birinin əvvəldən axıradək gedişinin ardıcıl olaraq izlənilməsi;

– bu üsyanların müxtəlif dövrlərinə münasibətdə yerli, Qafqaz və mərkəzi rus hakimiyyət dairələrinin yürütdüyü siyasətin səciyyəvi cəhətlərinin nəzərdən keçirilməsi;

– Şimali Azərbaycanın müvafiq bölgələrindəki üsyanları zamanı Dağıstan xalqları ilə müxtəlif xarakterli əlaqələrin bəzi xüsusiyyətlərinin təsvir edilməsi;

– üsyanların məğlub edilməsinin səbəblərinin və onların konkret nəticələrinin qiymətləndirilməsi.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını müqayisəli təhlil və sistemli analiz üsulları təşkil edir. Mövzu ilə bağlı müxtəlif səpgili məlumatlar qarşılıqlı şəkildə təhlil olunub, nəzəri mülahizələr faktiki materiallarla əlaqələndirilibdir. Məntiqi təhlil yolu ilə konseptual elmi nəticələr, nəzəri ümumiləşdirmələr əldə edilmiş, ümumi ictimai inkişaf qanunları əsasında hadisələrin siyasi, iqtisadi və ideoloji amilləri araşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Mövcud dissertasiya Azərbaycan tarixşünaslığında ilk dəfədir ki, çarizmin müstəmləkə rejiminə qarşı yönəlmiş 1877-ci il üsyanları məxsusi olaraq və kompleks şəkildə tədqiq edilmişdir. İndiyədək bəzi tədqiqatlarda mövzunun ayrı-ayrı aspektlərinə toxunulmuşsa da 1877-ci ildə Dərbənd və onun ətraf ərazilərində, Quba və Nuxa qəzalarında, habelə Zaqatala dairəsində geniş miqyas almış və bütövlükdə Rusiyanın bu ərazilər üzərində nəzarətin az qala itirilməsinə gətirib çıxaran üsyanların səbəbləri, gedişatı və nəticələri belə kompleks şəkildə öyrənilməmişdir.

Tədqiqatçıların nəzərindən kənarda qalmış və ya az istifadə edilmiş qaynaqlara geniş yer verilməsi mövzunun daha mühüm məsələlərinin işıqlandırılmasına yenidən müraciət etməyə şərait yaratmış oldu. İşin elmi yeniliyi həm də ondan ibarətdir ki, burada qarşıya qoyulan əsas məqsədin nəticəsi kimi bir sıra konkret elmi vəzifələr öz həllini tapmışdır:

– üsyanlar ərəfəsində Şimali Azərbaycanda çarizmin müstəmləkə siyasətinin başlıca istiqamətləri müəyyən edilmişdir;

– 1870-ci il 14 may tarixli əsasnamə təhlil edilmiş və onun həyata keçirilməsinə qarşı kəndlilərin narazılıqlarının artması və bu narazılıqların 1877-ci ildə üsyana çevrilməsinin səbəblərinə aydınlıq gətirilmişdir;

– Rusiya-Osmanlı müharibəsinin üsyanların başlanmasına bilavasitə təsiri araşdırılmışdır;

– Rusiya-Osmanlı müharibəsi ərəfəsində Şimali Azərbaycanın ictimai-siyasi mühiti nəzərdən keçirilmişdir;

– Tarixi Azərbaycan şəhəri olan Dərbənddə və onun ətraf ərazilərində, Quba və Nuxa qəzalarında, habelə Zaqatala dairəsində baş üsyanlar geniş şəkildə təhlil və təsvir edilmişdir;

– üsyanların məğlub edilməsinin səbəbləri üzə çıxarılmış və onların konkret nəticələri qiymətləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın yazılması zamanı sual doğuran bir sıra məsələlər tarixi faktlar və dəlillərlə diqqətlə araşdırılmışdır. Dissertasiya və onun materiallarından ali məktəblərdə müvafiq ixtisas kursları və xüsusi seminar məşğələlərinin keçirilməsində müəllimlərə kömək edə bilər. Dissertasiyada gətirilən faktiki materiallardan və ümumiləşdirmələrdən Azərbaycanda çarizmin müstəmləkə siyasəti və xalq-azadlıq hərəkatının üzvi tərkibi olan 1877-ci üsyanlarının tarixinə dair ümumi və xüsusi tematik əsərlərin, habelə ali, orta ixtisas və orta məktəblər üçün dərsliklərin yazılmasında istifadə oluna bilər. Dissertasiya və xüsusən də onun bir sıra ümumiləşdirici müddəaları gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində əvəzsiz rol oynaya bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA A.A.Bakınanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya kənar elmi müəssisələrdən də dəvət olunmuş mütəxəssislərin iştirak ilə adı çəkilən şöbədə iki dəfə müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas məzmunu müxtəlif elmi jurnallarda, konfrans materiallarında nəşr olunmuş bir sıra elmi məqalələrdə əks edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"Giriş"də mövzunun aktuallığı və yeniliyi əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, problemin işlənilməsi və öyrənilməsi dərəcəsini təsəvvür etməyə imkan verən ədəbiyyat və mənbələrin tənqidi analizi aparılmış, işin elmi-nəzəri və elmi-təcrübi əhəmiyyəti verilmişdir.

İki bölümdən ibarət birinci fəsildə ("XIX əsrin ortalarında Şimali Azərbaycanda sosial-iqtisadi durumun ümumi səciyyəsi") 1877-ci il üsyanlarının başlanmasına bilavasitə təsir edən çarizmin müstəmləkə siyasətinin isti-

qamətləri tədqiq edilmiş, 1870-ci il 14 may tarixli kəndli islahatının hazırlanması, onun mahiyyəti və nəticələri müəyyənləşdirilmişdir.

Araşdırmalar göstərmişdir ki, Qafqazın ilk canişini olan M.S.Voronsovun böyük önəm verdiyi fərman layihəsi və əsasnamə senata təqdim edildikdən sonra sonuncu əlavələr edilmiş və nəhayət bu fərman 1846-cı il dekabrın 6-da çar tərəfindən təsdiq olunmuşdu. M.S.Voronsov bu dövlət sənədini belə qiymətləndirirdi: "Bəylərin və ağaların imtiyazlarının təsdiq olunması – onların özlərinə qaytarılması və gələcək dövr üçün sakitləşdirilməsi – bizim bu diyardakı hakimiyyətimizi dağlarda Şamilin özünə qarşı hətta böyük sayılan hər hansı təsadüfi qələbəmizdən də artıq möhkəmləndirər".[1]

Fərmandakı prinsiplər 1847-ci il aprelin 20-də və dekabrın 28-də, habelə 1851-ci il iyunun 8-də verilmiş "Kəndli əsasnamə"lərində inkişaf etdirilmişdi. Əsasnamələrin birincisi Şamaxı, Şuşa, Lənkəran, Bakı və Quba qəzalarının xan və bəy, ikincisi Borçalı, Qazax və Şəmşəddil distansiyaları ağaları və Yelizavetpol xan və bəy ailələrinə, üçüncüsü isə İrəvan quberniyası torpaq sahibkarlarına şamil edilirdi.

Tədqiqatlar göstərdi ki, xəzinə kəndlilərindən vergi yığılması üçün yeni vergi qanununun hazırlanması məsələsi aktuallaşdığına görə Y.A.Qaqemeysterin başçılıq etdiyi Şamaxı quberniyası vergi komissiyası layihənin qəti tərtibinə başlamışdı. Bu işin sürətləndirilməsi məqsədilə 1850-ci il aprelin 20-də Cənubi Qafqazda torpaq-vergi komitələri ləğv edilmiş və bu işin aparılması qanun verilənədək canişinin səlahiyyətinə şamil edilmişdi. Dövlət kəndlilərinin xəzinəyə ödəyəcəyi vergilər haqqında yeni qanun layihəsi bir sıra müzakirələrdən sonra 1851-ci il oktyabrın 23-də Qafqaz komitəsi tərəfindən təsdiq olundu. Yeni vergi qanunu Dərbənd quberniyasına da şamil edilirdi.

Diyarda mərzləmə işi aparılmadığından bu məsələlər kəndlər və bütöv kənd icmaları arasında tez-tez münaqişələrə səbəb olurdu. Belə münaqişələrin və hətta qanlı toqquşmaların siyasi hadisələrə çevrilməsindən çəkinən çarizm 1861-ci il iyunun 29-da "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında əsasnamə" qəbul etməyə məcbur oldu. "Əsasnamə"nin icrası üçün Qafqaz canişinliyinin tabeliyində 1862-ci il yanvarın 1-dən torpaqların bilavasitə mərzləşdirilməsi işinə başlayan, tərkibi sədr və 4 üzvdən ibarət olan xüsusi Cənubi Qafqaz Mərz Palatası təsis edildi.[2]

Şimali Azərbaycanda kənd özünü idarəsi dövlət kəndlilərinin tabeliyini daha da möhkəmləndirməli, onu polis-mütləqiyyət dövlətindən hərtərəfli asılı vəziyyətdə saxlamalı idi. 1865-ci ildə aprelin 11-də canişin tərəfindən təsdiq edilmiş "Tiflis və Kutaisi quberniyalarında kənd cəmiyyətləri haqqında əsasnamə" və 1866-cı il avqustun 23-də təsdiq edilmiş "Bakı quberniyasında kənd cəmiyyətləri, onların ictimai idarəsi, dövlət və ictimai mü-

---

[1] Azərbaycan tarixi. 3 cilddə. II cild (Azərbaycanın Rusiyaya birləşdirilməsindən 1917-ci ilin fevral burjua-demokratik inqilabına qədər), s. 98.

[2] Иваненко В.Н. Гражданское управление Закавказьем. Тифлис, 1901, с. 68

kəlləfiyyətləri haqqında əsasnamə"[1] bu məqsədə xidmət edirdi. Bu əsasnamələr 1864-cü il oktyabrın 13-də təsdiqini tapmış "Tiflis quberniyasında kənd cəmiyyətlərinin təsis edilməsi, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında qaydalar" əsasında hazırlanmışdı.

Canişinin baş idarə şurası 1869-cu il fevralın 20-də bəy komissiyalarının işinə baxdıqdan sonra işlərin nəticələri ümumən məqbul hesab olunmuş və bəzi nəsillərə əlavə sənədlərin toplamasının vacibliyi açıqlanmışdı. 1869-cu ildə Şuşa komissiyası, 1870-ci ildə isə Bakı bəy komissiyası öz işlərinə başlamışdı. Bakı quberniyasında isə işə başlamış bəy komissiyaları fəaliyyətlərini Şamaxı, Lənkəran, Göyçay, Cavad, Bakı və Quba qəzalarında qurmalı idilər.

Nəhayət, Mərkəzi Cənubi Qafqaz Komitəsi bəy komissiyalarının işini bəyəndikdən sonra 1870-ci il mayın 14-də "Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyası ali müsəlman silkindən olan şəxslərin və habelə erməni (xəmsə — T.B.) məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında əsasnamə" adlı qanun layihəsi imperator tərəfindən təsdiq olundu.[2] 1877-ci il sentyabrın 3-də "İrəvan quberniyasının və Tiflis quberniyasının Ahalsıx qəzasının ali müsəlman zümrəsinə məxsus olmayan torpaqlarda yaşayan dövlət kəndlilərinin torpaq təminatı haqqında" əsasnamə təsdiq olunduqdan sonra bu sahədə bir sıra işlərin həyata keçirilməsinə başlanıldı.

Çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi bir sıra qanunlar onun müstəmləkə siyasətinin ən başlıca istiqamətlərindən olub, yerli əhalini talamaq və daha çox sərvəti mərkəzə daşımaq məqsədi güdürdü.

Çarizmin həyata keçirmiş olduğu belə tədbirlər kəndlilərin narazılıqlarına səbəb olur və zaman-zaman belə narazılıqlar çar idarələrinə təqdim olunmuş şikayət ərizələri kimi yığılır və belə şəraitdə silahlı çıxışların başlanması üçün ən adi bəhanələr kifayət edirdi. Budəfəki üsyanların başlanmasına bəhanə 1877-ci ildə başlanmış rus-osmanlı müharibəsi oldu.

Dissertasiyanın "1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi və onun Şimali Azərbaycanda sosial-iqtisadi durumuna təsiri" adlı ikinci fəsli üç bölümdən ibarətdir. Şimali Azərbaycanda baş vermiş 1877-ci il üsyanlarının Rusiya-Osmanlı müharibəsinin başlanması ilə bilavasitə bağlı olduğundan, müharibənin gedişatının üsyanların gözlənilmədən böyük əraziləri bürüməsinə təsirini göstərmək məqsədilə bu fəslin birinci və ikinci paraqraflarını 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin bir sıra aspektlərinə həsr etmişik.

Məlumdur ki, Rusiya Avropa dövlətləri qarşısında Osmanlı dövlətinə qarşı müharibənin yalnız Balkan yarımadasında aparacağını bəyan etməsinə baxmayaraq, aprelin 12-nə kimi Qafqazdan Osmanlı dövləti sərhədində

---

[1] ПСЗРИ. Собрание второе. Т. 45. Отделение второе. 1870 год. Закон 49078, с.638-642.

[2] Yenə orada, T. 52. Отделение второе. 1877 год. Закон 57691, с.114-115.

108 min canlı hərbi qüvvə səfərbər edilmişdi.[1]

1877-ci il iyulun əvvəllərindən həmin il sentyabrın sonlarına qədər olan dövr ciddi müvəffəqiyyətsizliklərə məruz qalıb məğlub edilmiş ruslar üçün ən çətin dövr hesab olunurdu. Bütün Qafqazı ruslardan təmizləyəcəyini qarşısına məqsəd qoyan Osmanlı sərkərdəsi Muxtar paşa yazırdı: "Mən rusları öz torpaqlarına qədər qovacağam, sərhədi keçib Qafqazı rusların əlindən alacağam".[2]

İyunun 25-də Muxtar paşa Qarsın 15 verstliyindəki Ağbaba təpəliklərini ruslardan təmizlədi. Vizinköy və Bulanıq kəndi yaxınlığında mövqe tutmuş Muxtar paşanın Arpa çay tərəfə irəlilədiyini zənn edən Loris-Melikov Yeniköydəki mövqelərini tərk edərək Aleksandropola (Gümrüyə) irəliləməyə başlamışdı. İyulun 3-də o, birinci kolonnanı Geymanın başçılığı ilə Böyük və Kiçik Pargetə, ikinci kolonnanı Develin başçılığı ilə Kükükdərə və Camıslı kəndlərinə mövqelərini möhkəmləndirməyə göndərmişdi.

Muxtar paşa iyulun əvvəlində Alaca yüksəkliyini geri alaraq, mövqelərini bərkidə bilmişdi. Bu qələbədən ruhlanan Muxtar paşa rusları Arpa çayın sol sahilinə qovmaqla, qışı Tiflisdə və İrəvanda keçirəcəyinə ümid edirdi. Bu döyüşdə ruslar xeyli itki verməklə fasiləsiz geri çəkilməyə məcbur olunmuşdular. Qızıltəpə qələbəsi İstanbulda həlledici qələbə kimi qəbul olunmuşdu. Bu qələbəyə görə Muxtar paşa "Qazi" titulu ilə təltif olunmuşdu.[3] Lakin başda Muxtar paşa olmaqla, türk qoşunu qələbələri uzun çəkmədi.

"Əkinçi" qəzeti yazırdı: "Sentyabrın iyirmisində və iyirmi birində olan cənglərdən sonra bu gecə türklər özləri dayandıqları yerlərin çoxundan, o cümlədən Qızıltəpədən köçüb getdilər. Ruslar onların dalınca gedib Hacıvəli, Subatan, Gilverən (Giləverdi) kəndlərini zəbt ediblər".[4]

1877-ci ilin sonlarında Osmanlı qoşun birləşmələri xeyli ərazilərdən geri çəkilməyə məcbur edilmişdi. Artıq türklər bu müharibədə uduzmuşdular. Rusiya ilə Osmanlı tərəfləri arasında növbəti görüş yanvarın 17-də baş tutmuşdu. Bu dəfə Ərzuruma gəlmiş rus nümayəndəsinin Ərzurum qarnizonun şəhəri silahsız tərk etməsilə Ərzurumun təslim edilməsi barəsində təklifi İsmayıl paşanı lap özündən çıxarmışdı. Bir gün sonra İsmayıl paşa rusların nümayəndəsinə qarnizonu şəhərdən silahlı və yaxud silahsız tərk etməklə təslim etməsinə razı olmadığını bildirmişdi.[5]

Ərzurumun təslim olunması haqqında tərəflər arasında baş tutan danışıqlar 1878-ci il fevralın 7-nə qədər davam etmişdi. Nəhayət, 1878-ci il fevralın 7-də Ərzurumun təslim olunması haqqında xüsusi müqavilə imzalan-

---

[1] Русско-турецкая война в 1877-1878 г. на Кавказе и в Малой Азии. Ч. 1. С.-Петербург, Типолитография А.Г.Розена, 1906, с. 152.

[2] Мегрелидзе Ш.В. Грузия в русско-турецкой войне 1877-1878 гг. Тбилиси; Мецниереба, 1972, с.163.

[3] Материалы .... Т.2, с. 62-67.

[4] Əkinçi 1875-1877. Tam mətni, s.453.

[5] Материалы ... . Т.3, с. 194-195.

dı. Razılığa əsasən türk qoşunları Ərzurum qalasını 1878-ci il fevralın 8-də tərk etməli idilər.[1]

İkinci fəslin üçüncü paraqrafında 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsinin Şimali Azərbaycanın ictimai-siyasi mühitinə təsiri tədqiq olunmuşdur. Müharibənin başlanması haqqında olan xəbərlər sərhəd bölgələrində ictimai-siyasi vəziyyətin daha da gərginləşməsi ilə müşayiət olunurdu. Buranın əhalisi iki qütbə – türkləri müdafiə edən azərbaycanlılara və həmişə rusların boyunduruğunda olan ermənilərə bölünmüşdü. Müharibənin bağlanacağı təqdirdə azərbaycanlılar türklərin, ermənilər isə rusların qələbə çalacağına ümid edirdilər.[2]

1876-cı ilin avqustunda Naxçıvan qəzası Tulebul kənd icma başçısının qəza rəisinə ünvanlandığı məlumatda "Bulan kənd camaatını hökumətə qarşı qaldırmaq üçün Kərbəlayi Əli Hacı Molla Əhmədəli oğlunun təbliğata başladığından" bəhs edilirdi. Kərbəlayi Əli Hacı Molla Əhmədəli oğlu müsəlmanları bu müharibədə türklərin müdafiəsinə qalxmağa və müstəmləkəçilərə qarşı "cihad" elan etməyə çağırırdı.[3] 1876-cı ilin avqustunda İrəvan quberniya rəisinin məlumatından aydın olur ki, Qazax qəzasının Sıxlı dairəsi camaatının İrəvan quberniyasına köçü zamanı onların arasında müharibə olarsa müsəlmanlar türklərin müdafiəsinə qalxacaqları şübhəsiz idi.

Bakı quberniyasında da müharibə ərəfəsində və müharibə illərində ictimai-siyasi vəziyyət kəskin şəkildə dəyişmişdi. 1876-cı ilin dekabrında Şamaxı qəza rəisi Bakı qubernatoruna qəzada əhali arasında həyəcanlı əhval ruhiyyənin yaranması haqqında məlumat verirdi. Məlumatda Şamaxı qəzasının ən iri məntəqələrindən biri olan Kürdəmirdə yerli polis pristavı Boquslavskinin Kürdəmir kənd icma başçısı Hacı Uğurlu bəyə məscidə gedənlərin qarşısını almaq üçün ona iki atlı verməsi müraciətinin yerinə yetirilmədiyi, bundan əlavə Kürdəmir əfəndisi Yəhya əfəndi Hacı Mahmud əfəndi oğlunun rusların türklərlə müharibə edəcəyi təqdirdə türklərə kömək etmək çağırışları ilə əhalini ayağa qaldırmaq niyyətində olduğu göstərilirdi. Kənd camaatı qarşısında çıxış edən tanınmış mürid Hacı Mahmudun oğlu olan Yəhya əfəndi lazım gələrdisə "cihad" elan olunacağını bildirirdi.[4]

1877-ci il yanvarın 17-də çar tərəfində kəndlərdə ayrı-ayrı adamların üsyanlara çağırışların aparılmasının qarşısını almaq məqsədilə xüsusi fərmanın imzalamasına baxmayaraq, ruslar bunun qarşısını ala bilmirdilər. Fevralın 9-da Dərbənd şəhər polisi qubalı Ramazan İbrahim Xəlil oğlunu Hacı İsmayıl əfəndiyə əhalini üsyana qaldırmağa çağıran məktub yazdığına görə

---

[1] Материалы ... . T.3, s.195.

[2] Российский Государственный Исторический Архив, ф.1405, оп. 521, д. 396. л. 80.

[3] Yenə orada, v. 113 arx.

[4] Государственный Исторический Архив Российской Федерации, ф. 1405, оп. 521, д. 396. л. 220.

həbs etmişdi.[1]

Təbliğata görə Şuşa həbsxanasına salınmış Şuşa və Xankəndindən olan Kərbəlayi İbrahim Molla Məhəmməd oğlu, Kərbəlayi Əli Abbas oğlu, Kərbəlayi Abdulhəsən Abdulla oğlu, Fərəc Niftalı oğlu və digərləri həbsxananın özündə belə fəaliyyətlərini davam etdirirdilər.[2]

Müharibə Qafqazda ermənilərə daha çox şeylər vəd edirdi. Bundan iştaha gələn və ruhlanan ermənilər bütün vasitələrlə Qafqaz müsəlmanları arasında təfriqə salır, özlərini hökumətə çox yaxın kütlə kimi təqdim edir, hökumətin siyasətini müdafiə etməyə çalışırdılar. Ermənilərin belə hərəkətləri azərbaycanlıların hiddətinə səbəb olurdu. Dövrün azərbaycandilli qəzetinin məlumatına görə, ermənilər "neçə yüz ildir ki, islam ətrafında olan erməni, gürcü və qeyri tayfaları güc ilə islam edib və siz bu qədər tayfaları ittihadi-islam ilə birləşdirmək istəyirsiniz", "verin bizə bizim yerləri ki, keçmişdə onları güc ilə zəbt etmisiniz" kimi sərsəm çıxışları ilə mətbuatda məqalələr nəşr etdirirdilər.[3]

İmperiyaya sədaqətliliyini sübut etməyə can atan ermənilər müharibədə ruslar tərəfində osmanlılara qarşı döyüşməkləri ilə fəxr edirdilər. Onlar müharibənin getdiyi bir vaxtda 3 min erməninin Qafqaza köçürməsini təmin etmiş və həmin ermənilərə lazımi şərait yaradacağına inandıra bilmişdilər.

Müharibə yeni qaçaq dəstələrinin yaranmasına rəvac verirdi. Nuxa qəzasında qaçaq dəstələrinin artması nəticəsində yerli məmurlara olan hücumlarının sayı da artırdı. Müharibə ərəfəsində Şimali Azərbaycanda İskəndər, Kərəm, Kor İsmayıl və digər qaçaqlar müstəmləkəçilərə qarşı mübarizələrini davam etdirirdilər.

Beləliklə, rus-osmanlı müharibəsinin başlanması Şimali Azərbaycanda müsəlman əhalinin müstəmləkəçi rejiminə və habelə bu rejimi müdafiə edən ermənilərə qarşı nifrətini artırmış oldu. Müharibə diyarın ictimai-siyasi durumunu getdikcə gərginləşdirir və əhalini üsyanlara qalxmağa sövq edirdi.

Dissertasiyanın dörd bölümdən ibarət olan üçüncü fəsli "1877-ci il üsyanlarının başlanması, gedişatı və nəticələri" adlandırılmışdır. Bu fəslin birinci bölümündə Dərbənd bölgəsində başlanmış kəndli çıxışlarının genişlənərək irimiqyaslı üsyanlara çevrilməsi tədqiq olunmuşdur.

XIX əsrin əvvəllərindən Şimali Azərbaycanda və Dağıstanda islam dini hakim mövqedə olduğundan orada Osmanlı dövləti tərəfindən daim müdafiə olunan dini hərəkatlar mütəmadi olaraq rus xristian işğalına qarşı yönəlirdi və getdikcə kəskin xarakter almağa başlayırdı. Dağıstan alimlərindən bir qrupunun da yazdıqları kimi, "Türkiyə ilə ittifaqda olan mübarizənin nümayəndələri yalnız bu zaman deyil, həmişə türklərin köməyindən yararlanmışlar. Bu, sonuncu dəfə Rusiya ilə Türkiyə arasında 1877-ci il mühari-

---

[1] Əkinçi 1875-1877, s. 320

[2] Yenə orada, s. 427.

[3] Yenə orada, s. 383.

bəsi başlananda olmuşdu".[1]

1877-ci ilin sentyabrında Mərkəzi Dağıstanda Levaşi kəndi yaxınlığında üsyançılarla hökumət qoşunu arasında döyüşlərin getdiyi zaman Cənubi Dağıstan əhalisi üsyana qalxdı. Üsyana Xanməhəmmədqala, Başlı, Qayakənd, Barıköy, Macalis, Cəmikənd, Yengikənd, Muleb, Padar, Qasımkənd, Qurax, Axtı kimi iri kəndlərlə yanaşı digər kəndlərin əhalisi də qoşulmuşdular. Dairə rəisləri hiddətlənmiş üsyançılardan qorunmaq üçün Dərbənd və Qubaya qaçmışdılar.[2]

Dərbənd şəhəri ruslar üçün strateji hərbi məntəqə hesab olunurdu. Şəhərin üsyançıların əlinə keçməsi üsyan dalğasının Cənubi Qafqazın bütün ərazilərini bürüməsi demək idi. Hələ üsyan təzəcə başlayanda general Komarov Dərbəndin üsyançılardan müdafiəsini təşkil etmək məqsədilə bir sıra tədbirlər görməli olmuşdu. Müstəmləkəçilər tez bir zamanda şəhərin qala divarlarını təmir etmiş və şəhərin ayrı-ayrı yerlərində barrikadalar qurmuşdular.[3]

Tezliklə Dərbəndətrafı kəndlərdən üsyana qoşulmuş kəndlilərinin Dərbənd şəhərinə doğru irəliləməsi haqqında məlumatlar daxil olmağa başladı. Artıq sentyabrın 13-də Dərbənd ilə Quba arasında teleqraf xətti kəsilmişdi.[4]Dərbənd şəhəri üsyançıların mühasirəsinə düşdü. Sentyabrın 12-də polkovnik Ter-Asaturov knyaz Loris-Melikovdan Dərbəndə irəliləməsi xəbəri alandan sonra ertəsi gün səhər tezdən Levaşidən böyük hərbi qüvvə ilə irəliləməyə başladı. Rus komandanlığı Dərbənd kimi mühüm hərbi-strateji məntəqəyə yeni qüvvələr gətirməkdə davam edirdi. Sentyabrın 23-dən 25-nə kimi Dərbəndə həm dənizdən, həm də quru yol ilə çoxlu yeni hərbi qüvvələr gətirildi. Sentyabrın 26-dan başlayaraq Dərbənddəki hərbi qüvvələrə baxış keçirilmiş və onların hərbi hazırlıqları yoxlanılmışdı. Sonra bu qüvvələrə geri çağırılmış Dağıstan qeyri-nizami atlı alayı da əlavə olunmuşdu. Dərbənddə toplanmış hərbi dəstə Qaytaq dəstəsi adlandırılmış və birləşməyə ümumi komandanlıq general-mayor Komarova tapşırılmışdı.[5] Dağıstan vilayətinin cənubunda üsyançıların bir sıra döyüşlərdə ağır məğlubiyyətlərə düçar edilməsinə və onların xeyli itkilər vermələrinə baxmayaraq üsyanlar sakitləşmək bilmirdilər. Oktyabrın 11-də Qara-Qaytaqda sakitlik bərpa olunsa da, dağlıq ərazilərdə üsyanlar davam edirdi.[6]

---

[1] Бартольд В.В. Общее работы по истории Средней Азии. Работы по истории Кавказа и Восточной Европы. т. 2, часть 1. Москва, изд. Восточной литературы, 1963, с. 763.

[2] История Дагестана. Т. 2, с. 155.

[3] История Апшеронского полка 1700-1892 гг. Т.2, с. 479.

[4] AMEA TİEA, iş 1664(1), v. 189.

[5] История Апшеронского полка 1700-1892 гг. Составлено Л.Богуславским. Т.2. С.Петербург, Типография министерства сообщения, 1892, с. 488.

[6] Bax: Айтберов Т.М., Дадаев Ю.У., Омаров Х.А. Восстания дагестанцев и чеченцев в послешамилевскую эпоху и имамат 1877 года. Книга 1.

Dərbəndətrafı bölgələri də bürümüş bu böyük üsyan amansızcasına yatırıldı. İşə başlamış çoxsaylı cəza dəstələri minlərlə üsyançının evlərini viran qoymuş, üsyançılar özləri isə sürgünə göndərilmişdilər. Üsyan bir çox fəalları dar ağacından asılmışdı. Qaziqumuqda 5, Solanubda 15, Cənubi Dağıstanda 3 nəfər yerli əhali qarşısında dar ağacından asılmışdı. Üsyanda iştirak etdiyinə görə Samur dairəsindən 251, Kürə dairəsindən isə 288 nəfər Rusiyanın daxili quberniyalarına sürgün olunmuşdular.[1] Bunlara baxmayaraq tezliklə Quba qəzasında da geniş üsyan baş verdi. Dağıstan vilayəti rus qoşununun komandanlığı tərəfindən alayın hərbi qərargah rəhbərinə üsyanın genişlənməsinin qarşısını almaq haqqında göndərilən teleqramdan sonra sentyabr ayının 10-dan etibarən Qusarda müdafiə tədbirləri görülməyə başlandı.[2] Həmin gündən başlayaraq hər tərəfdə nəzarətçilər və gecə milisləri qoyulmuşdu.[3]

Dərbənd ətrafında üsyanın başlanmasından üç gün sonra kürəlilərdən ibarət azsaylı üsyançı dəstəsi Samur çayını keçərək Yalama yaxınlığındakı Şirvan alayının xutorunu yandırmış, Samur poçt stansiyasını qarət etmişdi.[4] Qubaya xeyli sayda hərbi qüvvələrin göndərilməsi nəzərdə tutulmuşdu. Quba qəza rəisi Həzrə, Zeyxur və Yalama kəndlilərinin tərəddüd içərisində olduğunu və onlar arasında sakitliyin olmadığını əsas gətirərək, buraya kazakların göndərilməsinin tezləşdirilməsini xahiş edirdi.[5]

Qusardan verilən məlumata görə "Quba qəzasının şimalında kürəli qiyamçılar və üsyana qalxmış Samursahili kəndlilərin böyük mübarizəsi gözlənilir. Burada saxlanılan hərbi hissələrlə ərazini nəzarətdə saxlamaq mümkün deyildir".[6] Samur çayının sol sahilində hiddətlənmiş əhalinin yeni üsyan üçün cəmlənməsi haqqında rəsmi məlumat alındıqdan sonra sentyabrın 28-də Qusardan Həzrəyə kazaklardan ibarət olan piyada taqım gətirildi.[7] Üsyançıların sayı çox olduğuna görə oktyabrın 1-də Həzrə kəndinə yenidən 4 batareyadan ibarət olan bölük göndərildi. Hər iki taqım və artilleriya bölüyünə rəhbərlik Şirvan alayının mayoru Sivinisə həvalə olunmuşdu. Hərbi hissə Əvəcuq kəndindən keçərək ertəsi gün Həzrəyə gəlib çatdı.[8]

Oktyabrın 3-də Qusardan mayor Sivinisə çatdırılan məlumatda gecə üsyançıların Samur çayını keçməklə sağ sahilə çıxacağından ehtiyatlı olmaq tapşırılmışdı. Belə olan təqdirdə, hərbi dəstə Piral kəndi yaxınlığına çəkilərək üsyançıları orada qarşılamalı oldu. Hərbi dəstə səhərini üsyançıların

---

[1] Абдулгамидов Н.А. Восстание в Южном Дагестане в 1877 году. Москва, Азбука, 2001, с. 92.
[2] AMEA TİEA, iş 1664(1), v. 188.
[3] ARDTA, f. 45, siy. 1, iş 132, v. 75.
[4] AMEA TİEA, iş 1664(1), v. 189.
[5] ARDTA, f. 45, siy. 1, iş 132, v. 66.
[6] Yenə orada, v. 86.
[7] AMEA TİEA, iş 1664(1), v. 189.
[8] Yenə orada, v. 190.

atəşləri ilə qarşıladı. Piral kəndi yaxınlığında baş vermiş döyüş haqqında qaynaqlardan birində deyilir: “Quba qəza rəisinin teleqramına görə onun tabeliyində olan iki taqım, iki artilleriya qurğusu və iki yüz kazakdan ibarət hərbi qüvvələr geri çəkilən zaman Piral kəndi yaxınlığında güclü atəşə məruz qalıblar. Bizi atəşə tutan üsyançılar kürəlilər, samurlular və onlara qoşulmuş yerli kəndlərin kəndliləridirlər”.[1]

Quba yolu da üsyana qoşulmuş yerli əhali tərəfindən tutulmuşdu. Üsyançıların Qusara hücum etməsindən xəbər tutan Quba şəhər əhalisinin xeyli hissəsi üsyana qoşulmağa can atırdı. Quba gərginlik içində idi. Şəhər varlıları isə şəhəri tərk etməyə başlamış,[2] bütün inzibati idarələr, habelə məktəblər, bağlanmışdı. Üsyançılara əvvəllər rus milis qoşunlarında xidmət etmiş poruçik Məmmədəli bəy, kapitan Qaziəhməd bəy və podporuçik Həsən bəy başçılıq edirdilər. Kəndlilər üsyançıların sıralarına daxil olur və hərbi dəstələrə qarşı cəsarətlə döyüşürdülər.[3] Oktyabr ayının 8-də gecə üsyan başçılarından olan kürəli Məmmədəli bəy öz qohumlarından birindən Dərbənd hərbi dəstəsinin Kürə dairəsinə yaxınlaşması haqqında xəbər alaraq ertəsi gün Ağbil kəndini tərk edib Dağıstana qayıtdı.[4]

Lakin oktyabrın 20-də Qaziəhmədin böyük bir dəstə ilə Samur çayının sağ sahilində yenidən peyda olması haqqında xəbərlər yayılmağa başlandı. Belə də oldu, tez bir zamanda o, öz üsyançı dəstələri ilə Quba qəzasına qayıtdı. O, bütün ətrafdakı kəndlərə üsyançıların müdafiəsini təşkil etmək çağırışı ilə öz adamlarını göndərməyə başlamışdı.[5]

Üsyan tezliklə yatırıldıqdan sonra üsyan iştirakçılarına divan tutulmasına başlandı. Zuğul, Kalunxür, Şixkalunxür, Nəcəfxür, Hil, Piral, Yasab, Tahircal, Muruğ, Xuluq, Acıaxur və Ugur kəndliləri üsyanın əsas “günahkarları” hesab olunurdular. Üsyanda iştirak etdiyinə görə bu kəndlərin hamısı talan edilmiş, üsyan iştirakçılarının evləri yandırılmış, özləri isə həbs edilərək Quba həbsxanasına salınmışdılar.[6]

Haqqında danışdığımız üsyanlar yalnız Quba qəzasını deyil, habelə Nuxa qəzasını da əhatə etmişdi. Dağlıların Nuxa qəzasına daxil olması isə burada üsyanın başlanmasını xüsusilə tezləşdirmiş oldu. Oktyabrın 30-da general-mayor Mamatsovun başçılıq etdiyi hərbi hissələrin tərkibi Yelizavetpolun birinci və dördüncü taqımları, Şuşa yerli batalyonunun 2 taqımı, Nuxanın yerli komandası, 400 nəfərlik Labinsk və 100-ə yaxın adamı olan Xapyor kazak alayı, Kuban kazaklarının dördüncü atlı batareyasından ibarət idi və belə hərbi qüvvələr Nuxada yerləşirdi. Yelizavetpol hərbi qüvvələrinin gücləndirilməsi məqsədilə Zaqataladan iki artilleriya qurğusu ilə

[1] ARDTA, f. 45, siy. 1, iş 132, v. 176.
[2] Гюлмалиев М.М. Göstərilən əsəri, s. 90.
[3] Мегрелидзе Ш.В. Göstərilən əsəri, s. 167.
[4] Абдулгамидов Н.А. Göstərilən əsəri, s. 50.
[5] Гюлмалиев М.М. Göstərilən əsəri, s. 90-91.
[6] Абдулгамидов Н.А. Göstərilən əsəri, s. 52.

birlikdə 3 piyada taqımının göndərilməsi tələb olunmuşdu.[1]

Hökumət qüvvələri ilə üsyançılar arasında atışmalar saatlarla davam edirdi. Qaranlığın düşməsi ilə tərəflər arasında olan atışma saat 7-yə yaxın dayandırıldı. Hərbi dəstə Nuxa şəhərini gecə hücumundan qorumaq məqsədilə Kiş kəndi yaxınlığında gecələməli oldu. Müxtəlif hissələrə pərən-pərən salınmış üsyançılar birləşərək Nuxa şəhərinə hücuma keçməyə hazırlaşırdılar. Nuxa qəzasında baş vermiş üsyan zamanı hökumət qoşun hissələri ilə döyüşlərdə 200-dən 300-ə qədər üsyançı öldürülmüşdü.[2] Bu barədə general-leytenant Mamatsov yazırdı: "Noyabrın 2-də çoxsaylı dağıstanlı və Nuxa qəzasının 12 kəndinin üsyançıları ilə üçgünlük döyüşdən sonra düşmən məhv edilmiş və dağıdılmışdır. Üsyançılardan 300 nəfər öldürülmüş və ondan iki dəfə çoxu yaralanmışdır. Bu gün hərbi hissələr istirahət edirlər. Onlar sabahdan başlayaraq kəndlərin təmizlənməsi işi ilə məşğul olacaqlar. Çoxlu əsir götürülən vardır".[3] 1877-ci ilin noyabrın 6-da Yelizavetpol qubernatoru vəzifəsini təhvil almış general-leytenant Mamatsov üsyançılara qarşı amansız repressiyalara başladı.

Şimali Azərbaycanda 1877-ci ildə üsyanın baş qaldırdığı yerlərdən biri də Zaqatala dairəsi oldu. Hökumət Zaqatalada üsyanın başlanmasından daha çox ehtiyat edirdi. Çünki hələ 1831, 1863-cü və başqa illərdə zaqatalalıların üsyankar ruhunu çox görmüşdü. Ona görə də hələ müharibə başlayan gündən Kaxetiyanın xristian əhalisini "vəhşi üsyançılardan mühafizəsini təşkil etmək məqsədi ilə" Alazan vadisində yerli Zaqatala batalyonu, Telavi, Sığnax, Leqodex və Tsarskoye-kolodanın cəlb edilmiş komandaları yerləşdirilmişdi. Bu dəstəyə ikinci Taman kazak alayının dördüncü və altıncı yüzlük dəstələri və Kuban atlı kazak briqadasının dördüncü batareyası daxil idi.[4]

Sentyabrın 4-də dağıstanlı üsyançılarının dağları aşaraq Kaxetiya və Zaqatalaya gəlmələri hökumət dairələrini təşvişə salmışdı. "Zaqatala qalasının sakinləri bir gün üsyançıların hücuma məruz qalacaqlarını bilirdilər. Qalanın komendantı da üsyanın baş verəcəyini bilirdi. Şübhəli bilinənlər həbsə alınırdılar. Onların içərisində mollalar və qadınlar da var idi".[5] Sentyabrın 14-də alınmış məlumata görə Dağıstanın mərkəzində baş qaldırmış üsyan Alazan çayının sol sahilinə böyük təsir göstərmişdir. Belə ki, "burada dağıstanlıların quldur dəstələri peyda olublar. Oradakı hərbi qüvvələr gücləndirilmiş və əhalinin qarətçilərin hücumlarından qorunması üçün bir sıra tədbirlər görülmüşdü. Hökumət qüvvələrinə gəldikdə, sentyabrın 8-də Bakı alayının kapitanı Kovalevski kontuziya almış, 7 əsgər

---

[1] AMEA TİEA, iş 1664(1), v. 206.
[2] Гюлмалиев M.M. Göstərilən əsəri, s. 99.
[3] ARDTA, f. 45, siy. 1, iş 132, v. 255.
[4] AMEA TİEA, iş 1664(1), v. 179.
[5] Qocayev H.A. Aleksandr Düma və ondan 20 il sonra // Qobustan, 1985, IV cild, s. 25.

öldürülmüş və 39 hərbçi yaralanmışdır”.[1]

Oktyabrın 29-da axşam knyaz Orbelianiyə üsyançıların Sarıbaş kəndini ələ keçirməsi və Zaqatala şəhərinə hücum etməyə hazırlaşması haqqında məlumat verildi. Məlumatın etibarlılığını yoxlamaq məqsədi ilə ertəsi gün Qaxdan 200 nəfərlik hərbi dəstə İlisuya kəşfiyyata göndərdi. İlisu kəndinə gələn hərbi dəstə kiçik piyada hissəsini burada saxlayaraq, qalan hərbi hissələrlə Sarıbaş kəndinə yaxınlaşdı. Üsyançılar hökumət qüvvələrinin ön hissəni kəndə buraxaraq onları daxmaların damından və ətraf təpəliklərdən güclü atəşə tutdular. Hərbi dəstə geri çəkildi və üsyançıların yeni hücumundan çəkinərək Qaxa qayıtmalı oldu. Üsyançılar isə İlisu kəndini də tuta bildilər.[2]

Üsyançıları darmadağın etmək tapşırığını alan polkovnik Şkurinski yuxarıların etimadını qazanmaq niyyətində idi. Dörd taqım, iki artilleriya qurğusu və kazak yüzlüyündən ibarət dəstə ilə irəliləyən Şkurinski əvvəl təpəlikləri ələ keçirmək, sonra isə kəndə daxil olmaq qərarına gəldi. Yaxşı silahlanmış hərbi dəstələr tezliklə təpəlikləri ələ keçirdilər və bundan sonra əsas hərbi hissə maneəsiz kəndə daxil ola bildi. Bu döyüşdə üsyançılardan 150 nəfər həlak olmuşdu.[3]

Beləliklə, Şimali Azərbaycanın bir sıra şimal, şimali-qərbi və şimali şərq hissələrini bürümüş 1877-ci il üsyanları xalqımızın çarizmə qarşı azadlıq mübarizəsi tarixində mühüm və şanlı bir səhifə olmuşdur. Məğlub olmasına baxmayaraq, bu üsyanların böyük tarixi əhəmiyyəti var idi. Bu, Şimali Azərbaycan kəndlərinin azadlıq uğrunda, müstəmləkəçilik əleyhinə kəskin etiraz hərəkatı idi. Üsyan bir daha sübut etdi ki, Şimali Azərbaycanda azadlıq uğrunda mübarizə aparmağa qadir olan qüvvələrin ictimai zəmini geniş olmuşdur, xalq öz azadlığını unutmamış və onu yenidən əldə etmək üçün hər cür qurbanlar verməyə hər an hazır olmuşdur.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatın başlıca yekunları verilmiş, əsas müddəalar və ümumiləşdirmələr öz əksini tapmışdır.

---

[1] ARDTA, f. 45, siy. 1, iş 132, v. 40.
[2] AMEA TİEA, iş 1664(1), v. 204-205.
[3] Yenə orada, v. 211.

**Dissertasiyanın əsas məzmunu** müəllifin aşağıdakı məqalələrində şərh olunmuşdur:

1. О крестьянских восстаниях в северном Азербайджане в 1877 г. // Кавказ и Мир Международный научный журнал. Тбилиси, 2010, №9, 4 səh.
2. 1877-ci il Quba üsyanı. Üsyanın ikinci mərhələsi // Gəncə Dövlət Universitetinin «Elmi əsərləri» Gəncə, 2013, №4, 5 səh.
3. 1877-ci ildə Dərbənd bölgəsində çıxışlar və üsyan dalğası // Tarix və onun problemləri, Bakı, 2013, №4, 5 səh.
4. 1877-ci il Quba üsyanı. Üsyanın birinci mərhələsi // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. Bakı, 2013, №4, 5 səh.
5. 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsinin Şimali Azərbaycanın ictimai-siyasi şəraitinə təsirinə dair // Azərbaycan MEA Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2014, X c., №1, 6 səh.

***T.G.Behbudova***

**The 1877 year's uprising in Northern Azerbaijan**

**SUMMARY**

After the invasion of the Northern Azerbaijan by tsarist Russia the reason of uprisings against the colonial policy of tsarizm, in the first place, was the fact that the people did not accept the colonial regime. The separate study of local revolts being a part of national liberation movement against colonialism in the nineteenth century is still keeps its relevance. In this respect, in this dissertation for the first time in Azerbaijan historiography, the causes and course of the uprisings that took place in 1877 in Northern Azerbaijan have been investigated and the results have been determined. While writing the dissertation the use of a wide range of archival documents, including published sources, as well as the actual materials reflected in historical literature allowed to find the solution of the problem at the highest level.

In the Introduction of the dissertation was grounded the urgency and innovation of the theme, shown the chronological framework, defined the goals and objectives, given the theoretical and practical importance of the work.

In the first chapter of the dissertation consisting of two sections ("The general characteristics of the social-economic situation in Northern Azerbaijan in the middle of the nineteenth century"), was investigated the line of the tsarism's colonial policy which had directly affected to the start of the uprisings in 1877, and was reviewed the development and the essence of rural reforms dated May 14, 1870.

The second chapter of the dissertation called as "The 1877-1878 years' war between Russia and the Ottoman Empire and its impact on the socio-economic situation in Northern Azerbaijan consists of three sections. Since the start of the uprisings in the 1877 year in Northern Azerbaijan was directly related to the Russian-Ottoman war in order to show the impact of the course of the war to the uprisings unexpectedly enveloping large areas, the first and second sections of this chapter were devoted to a number of aspects of the Russian-Ottoman war in 1877-1878.

The third chapter of the dissertation, which consists of four sections is called "The beginning, progress and results of the uprisings in 1877". In the first section of this chapter were investigated the peasant movements that began in Derbent region and expanded into a large-scale uprisings, and in the second section, the uprisings in Guba and Nukha uyezds, as well as in Zagatala district.

At the Conclusion the results of the research were given, the main theses and generalization of the dissertation were reflected.

*Т.Г.Бехбудова*

## Восстания 1877 года в Северном Азербайджане

## РЕЗЮМЕ

После оккупации Северного Азербайджана Россией начавшиеся против колониальной политики царизма восстания в первую очередь исходили из-за непринятия народом колониального режима. Исследование в отдельности локальных восстаний, происходивших в XIX веке против колониализма, как составная часть народно-освободительного движения по сей день сохраняет свою актуальность. С этой точки зрения в настоящей диссертации впервые в азербайджанской историографии были исследованы причины и ход происходивших в Северном Азербайджане в 1877 году восстаний, были обобщены итоги восстаний. При написании диссертации были использованы широкий круг архивных документов, в т.ч. опубликованные источники, а также историческая литература, что позволило всесторонне исследовать проблему на высоком уровне.

Во введении даны актуальность и новизна диссертации, хронологические рамки исследования, цели и задачи, определены научно-теоретическая и практическая значимость работы.

В первой главе диссертации, состоящей из двух подразделов («Общая характеристика социально-экономического положения в Северном Азербайджане в середине XIX века»), были исследованы все стороны колониальной политики царизма, непосредственно повлиявшие на восстания начала 1877 года, были рассмотрены подготовка крестьянской реформы от 14 мая 1870 года, и ее суть.

Вторая глава диссертации, названная «Российско-османская война 1877-1878 гг. и ее влияние на социально-экономическое положение в Северном Азербайджане», состоит из трех подразделов. Так как восстания 1877 года произошедшие в Северном Азербайджане были непосредственно связаны с началом Российско-османской войны 1877-1878 гг. и оказывали влияние на ход войны и стремительное распространение восстаний на большие территории, первый и второй подразделы этой главы посвящены некоторым аспектам этой войны.

Состоящий из четырех подразделов третья глава диссертации называется «Начало, ход и результаты восстаний 1877 года». В первом подразделе этой главы исследуются превращение крестьянских выступлений, начавшихся в Дербендском регионе, в крупное восстание, а в следующих подразделах – восстания, произошедшие в Губинском и Нухинском уездах, а также в Закатальском округе.

В заключительной части диссертации даны итоги, отражены основные положения и обобщения исследования.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.
Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА

*На правах рукописи*

ТАРАНА ГЕРАЙ гызы БЕХБУДОВА

# ВОССТАНИЯ 1877 г. В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

**Специальность: 5503.02 - Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

БАКУ – 2015